

## Coğrafiyanın əhəmiyyəti nədir?

**Coğrafiya bizə aşağıdakı istiqamətlər üzrə faydalı bilik və bacarıqlar verir:**

- Günəş sistemi, Yer planeti və digər səma cisimlərinin xüsusiyyətləri;
- Yer kürəsində baş verən daxili və xarici proseslər;
- Yer səthində relyefin müxtəlifliyi və onun səbəbləri;
- Yer səthinin çox hissəsini əhatə edən okeanlar, dənizlər, çaylar və s. digər su hövzələri;





- hava və iqlim, onların dəyişməsi, bu dəyişikliklərin təbiətə və insanlara təsiri;
- torpaqların müxtəlifliyi, onların yayılması və torpaqlardan istifadə;
- bitki və heyvanlar aləminin müxtəlifliyi, yayılması və onların tükənməsi səbəbləri;
- təbii ehtiyatlar, onların istifadəsi və tükənməsi;









- müxtəlif xalqlar, adət-ənənələr, fərqli mədəniyyətlər və onların yayılması;
- insanların təbiətə səyahətləri, istirahəti və müxtəlif nemətlərdən istifadəsi;
- dünyada baş verən təbii, sosial-iqtisadi proseslər və onların nəticələri.

**Bu bilik və bacarıqlar hər bir insana ətraf mühitə və digər insanlara daha həssas yanaşmağa, milli və ümumbəşəri dəyərlərə sahib olmağa və planetimizin dayanıqlı inkişafına töhfə verməyə imkan yaradır.**